**Azərbaycan Respublikasının**
**Diasporla İş üzrə Dövlət Komitəsi**

**Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar 2020-ci ildə həyata keçirilmiş tədbirlərə dair**

# HESABAT

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2020-ci il 5 fevral tarixli 34 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair Tədbirlər planına uyğun olaraq, Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin 18 fevral 2020-ci il tarixli 12-ü saylı əmri ilə müvafiq Tədbirlər Planı təsdiq edilib. Tədbirlər planına uyğun olaraq, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən müxtəlif formatlı anım mərasimləri, fotosərgilər, seminarlar, dəyirmi masalar, mətbuat konfransları keçirilib, xarici kütləvi informasiya vasitələri, o cümlədən tele-radio kanalları vasitəsilə Xocalı soyqırımına həsr olunmuş materiallar yayımlanıb, bir sıra ölkələrin rəsmi şəxsləri bəyanatla çıxış edib, o cümlədən ABŞ Konqresmenləri soyqırımı ilə bağlı bəyanat imzalayıblar.

**Fevralın 6-da** Polşanın Varşava şəhərində Azərbaycanın Polşadakı səfirliyi və Polşa Azərbaycanlıları Assosiasiyasının təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 30-cu və Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə yerli dövlət orqanlarının, ictimaiyyətin nümayəndələri və Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

**Fevralın 11-də** Ukraynanın Lvov şəhərində Xocalı soyqırımına həsr olunmuş "Bizi eşidin! Dünya uşaqları sülh yolunda!" mövzusunda konfrans təşkil olunub**.** Azərbaycanın Ukraynadakı səfirliyi və Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin (BUAK) gənclər departamentinin birgə təşkilatçılığı ilə baş tutan konfransda elm xadimləri, diplomatik korpusların, KİV-lərin nümayəndələri, bu ölkədəki diaspor təşkilatlarının təmsilçiləri iştirak ediblər.

**Fevralın 19-da** Birləşmiş Millətlər Təşkilatının (BMT) 58-ci sessiyası çərçivəsində Sosial İnkişaf Komissiyasının "Daha ədalətli dünyaya doğru: Asiyada evsizlik, sosial müdafiə, yoxsulluq və çatışmazlıq problemlərinin həlli yolları" mövzusunda forum keçirilib. Forumda Ermənistanın işğalçı siyasətindən və Xocalı soyqırımından danışılıb. BMT-nin Baş mənzil-qərargahında keçirilən forumda müxtəlif ölkələrin nümayəndələri, o cümlədən Avropa Azərbaycanlıları Konqresi (AAK) də təmsil olunub. Tədbir çərçivəsində Dünya Sülh və Əmin-amanlıq Federasiyasının (FOWPAL) təsis etdiyi "Sülh" mükafatı AAK-a təqdim edilib.

**Fevralın 21-də** Almaniyanın Berlin şəhərində Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə Berlindəki Azərbaycan evində Azərbaycanın xalq rəssamı Əşrəf Heybətovun Xocalıya həsr olunmuş əsərlərinin sərgisi təşkil edilib.Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycanın Almaniyadakı səfirliyinin nümayəndələri, eləcə də Ümumavropa Qarabağ mitinqində iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən Berlinə gəlmiş yüzlərlə soydaşımız iştirak ediblər.

**Fevralın 22-də** Almaniyanın Berlin şəhərində dünyanın 30-dan çox ölkəsində fəaliyyət göstərən diaspor təşkilatlarının təşəbbüsü və Almaniya Azərbaycanlıları Qarabağ mitinqi keçirilib. 1300 nəfərdən çox soydaşımızın iştirak etdiyi mitinqdə 17 dildə "Qarabağ Azərbaycandır!", "Biz terrora yox deyirik", "Azərbaycan ədalət tələb edir!", "Xocalıya biganə qalma!", "Dinc və günahsızların qatillərinə ar olsun!", "Erməni yalanlarına dur de!", "İşğalı dayandırın!", "Qarabağ haqqımızdır!" kimi şüarlarla beynəlxalq təşkilatlara çağırış edilib. Ümumavropa Qarabağ mitinqinin sonunda yekun sənəd qəbul edilib və bir sıra beynəlxalq təşkilatlara ünvanlanıb.

**Fevralın 22-də** Ukraynanın paytaxtı Kiyev şəhərində "Xocalı faciəsi: tarixi müqəddimə, səbəblər, nəticələr və hüquqi qiymət" mövzusunda elmi konfrans keçirilib. Ukrayna Azərbaycanlıları Radasının təşkil etdiyi tədbirdə ölkənin tanınmış elm xadimləri iştirak ediblər. Konfransda Ukraynanın fövqəladə və səlahiyyətli səfiri, UMEA-nın A.Krımski adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi əməkdaşı Yuri Koçubey, Azərbaycanın Ukraynadakı keçmiş səfiri, siyasi elmlər doktoru Tələt Əliyev, Milli Aviasiya Universitetinin professoru, tarix elmləri doktoru Viktor Kryukov, Ukrayna və Azərbaycan Ziyalıları Assambleyasının rəhbəri, tarix elmləri doktoru, professor Fərhad Turanlı və başqaları çıxış ediblər.

**Fevralın 22-də** Əskişəhərdə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş Əskişəhər Azərbaycanlılar Dərnəyi və Əskişəhər Ülki Ocaqları tərəfindən təşkil olunmuş "Xocalı soyqırımı və beynəlxalq münasibətlərdə yeri" mövzusunda konfrans keçirilib. Fevralın 23-də isə dərnəyin təşkilatçılığı ilə "Türkiyə mətbuatında Xocalı soyqırımı" adlı foto-sərgi və brifinq təşkil edilib.

**Fevralın 23-də** Niderlandın Haaqa şəhərində Xocalı soyqırımı qurbanlarının anım mərasimi keçirilib. Niderland Azərbaycan-Türk Kültür dərnəyinin təşkilatçılığı ilə keçirilən mərasimdə diplomatik korpusların, KİV-lərin nümayəndələri, bu ölkədəki diaspor təşkilatlarının təmsilçiləri iştirak ediblər.

**Fevralın 23-də** Əskişəhər Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə "Türkiyə mətbuatında Xocalı soyqırımı" adlı foto-sərgi və brifinq təşkil edilib. Brifinqdə çıxış edən dərnək sədri Cavid Aydın erməni silahlı dəstələri tərəfindən Xocalıda soyqırımı törədildiyini, 613 nəfər dinc sakinin qətlə yetirildiyini, Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğunu bildirib.

**Fevralın 23-də** İsraildə Qüds şəhərinin yaxınlığında "Xocalı 613" bağında Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbir “Xocalıya ədalət!” ("Justice for Khojaly") beynəlxalq kampaniyası çərçivəsində "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə gerçəkləşdirilib.

**Fevralın 23-də** Berlində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Almaniyadakı Türk-Azərbaycan Birliyinin (TAVD) təşkil etdiyi tədbirdə bu ölkədəki Azərbaycan və türk icmalarının, Diasporla İş üzrə Dövlət Komitəsinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

**Fevralın 23-də** ABŞ-ın Çikaqo şəhərində Azərbaycan tarixinin faciəli səhifələrindən biri olan Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. İllinoys Ştatının Holokost Muzeyi və Təhsil Mərkəzinin binasında baş tutan tədbir Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, ölkəmizin ABŞ-dakı səfirliyinin iştirakı və Amerikanın Orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzinin (ACMA) təşkilatçılığı ilə baş tutub.

**Fevralın 23-də** Qazaxıstanın Almatı şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. “Ata Yurd-Nomad” Azərbaycan

etnomədəni respublika ictimai birliyinin təşkilatçılığı ilə baş tutan tədbirdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Xocalı hadisələri barədə danışılıb.

**Fevralın 23-də** Avstraliyanın Sidney şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Avstraliya Azərbaycan Assosiasiyası və Güney Azərbaycan Demokratik Türk Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Türkiyənin baş konsulu Melih Kararal, avstraliyalı millət vəkili Linda Voltz və çoxsaylı qonaqlar iştirak ediblər.

**Fevralın 24-də** Böyük Britaniyanın paytaxtı London şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş etiraz aksiyası keçirilib. Britaniya parlamentinin qarşısında baş tutan aksiyanı Londondakı Azərbaycan evi təşkil edib. Aksiya iştirakçıları Britaniya parlamentindən Xocalı soyqırımının qurbanlarına ədalət, Dağlıq Qarabağın işğaldan azad olunmasına dəstək tələb ediblər.

**Fevralın 24-də** Haaqa şəhərində Ermənistanın Niderlanddakı səfirliyinin önündə etiraz aksiyası keçirilib. Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş aksiya bu ölkədə fəaliyyət göstərən Hollandiya Azərbaycan-Türk Mədəniyyət Dərnəyi tərəfindən təşkil olunub. Azərbaycan və türk diaspor təşkilatlarının nümayəndələrinin qatıldığı aksiyada ermənilərin Xocalıda törətdikləri amansız qətliam pislənilib.

**Fevralın 24-də** Tatarıstanın paytaxtı Kazan şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş fərdi piketlər keçirilib. "Azadlıq" tatar gəncləri birliyinin lideri Nail Nabiullin və fəalı Fanil Gilyazov bu qədim şəhərin Bauman küçəsində fərdi piketlərə çıxıblar.

**Fevralın 24-25-də** Latviyanın paytaxtı Riqa şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Baltikyanı Ölkələrdə Yaşayan Azərbaycanlıların Koordinasiya Şurasının birgə təşkilatçılığı ilə şəhərin “K.Suns” kinoteatrında gerçəkləşdirilən tədbirdə Azərbaycan icmasının üzvləri və Latviyada təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

**Fevralın 25-də** Finlandiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Xocalı soyqrımının 28-ci ildönümü ilə əlaqadar birgə imzaladıqları bəyanatı Finlandiya Parlamentinə təqdim ediblər.

**Fevralın 25-də** Norveçin Oslo şəhərində Norveç Azərbaycanlıları Gənclər təşkilatı (“NAYO”) tərəfindən Xocalı soyqrımının 28-ci ildönünü ilə əlaqadar anım tədbiri keçirilib. Tədbirdə NAYO-nun üzvləri, bu ölkədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

**Fevralın 25-də** Avstraliyanın Melburn şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş “Xocalıya ədalət!” adlı anım mərasimi keçirilib. Viktoriya Azərbaycan Mədəniyyəti Assosiasiyasının təşkilatçılığı ilə baş tutan tədbirdə Melburnda yaşayan Azərbaycan icmasının üzvləri, diplomatik korpusun əməkdaşları, eləcə də ölkəmizə dost münasibət bəsləyən xalqların təmsilçiləri iştirak ediblər.

**Fevralın 25-də** Türkiyənin paytaxtı Ankara şəhərində “Xocalıya ədalət!” mövzusunda konfrans keçirilib. Türkiyə-Azərbaycan Dərnəyi (TÜRKAZDER) tərəfindən təşkil olunan konfransda diplomatlar, paytaxt ictimaiyyətinin tanınmış nümayəndələri, QHT və KİV təmsilçiləri iştirak ediblər.

**Fevralın 25-də** Gürcüstanın Qardabani rayonunda Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbir Azərbaycanın Gürcüstandakı

səfirliyinin, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının birgə təşkilatçılığı ilə baş tutub.

**Fevralın 25-də** Moldovanın paytaxtı Kişinyov şəhərində “Xocalıya ədalət!” şüarı ilə yürüş keçirilib. Şəhərin mərkəzində yerləşən Ştefan Çel Mare küçəsindən Ermənistan səfirliyinə qədər davam edən yürüş Moldovanın ayrı-ayrı şəhərlərində yaşayan soydaşlarımız tərəfindən həyata keçirilib. Daha sonra yürüş iştirakçıları BMT-nin və ATƏT-in Moldovadakı ofislərinin önündə mitinq keçiriblər. Aksiyaçılar Xocalı faciəsinə siyasi-hüquqi qiymət verilməsini və onun soyqırımı kimi tanınmasını tələb ediblər.

**Fevral ayında** Ankarada fəaliyyət göstərən “Azərbaycan Gənclərinin Ankara Həmrəyliyi” (AGAH) ictimai birliyinin Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbirləri keçirilib. Xocalı soyqırımı ilə bağlı “Dünya İnsanlığının Ortaq Faciəsi: Xocalı soyqırımı” adlı anım tədbiri AGAH və Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının (YTB) birgə təşkilatçılığı ilə gerçəkləşdirilib. Tədbirdə YTB sədri və müavini, elm xadimləri, diplomatik korpusun əməkdaşları və müxtəlif ölkələrdən olan çoxsaylı əcnəbi tələbələr iştirak ediblər.

**Fevralın 25-də** Türkiyənin İstanbul şəhərində “Şam işığında Xocalıya ədalət” tələbi ilə yürüş keçirilib. İstanbul Türkiyə-Azərbaycan Dərnəyi (İSTAD), Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin (ATXƏM) təşkil etdiyi yürüşdə ictimaiyyət nümayəndələri, bu şəhərdə təhsil alan azərbaycanlı tələbələr, türkdilli xalqların ictimai birliklərinin əməkdaşları, yerli ictimaiyyətin və medianın nümayəndələri iştirak ediblər.

**Fevralın 25-də** Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı Sinan Oğan erməni vandalları tərəfindən Xocalıda törədilənləri bəşəri cinayət və soyqırımı aktı adlandırıb. O, qeyd edib ki, Azərbaycan xalqına qarşı törədilən bu soyqırımı insanlıq əleyhinə cinayət olaraq, düşünülmüş və planlaşdırılmış şəkildə həyata keçirilib.

**Fevralın 25-də** Rusiyanın Perm şəhərində Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı "Xocalı – ağrımızdır!" adlı anım mərasimi keçirilib. Tədbirdə Azərbaycan diasporunun və dost xalqların icma nümayəndələri iştirak ediblər.

**Fevralın 25-də** Özbəkistanın paytaxtı Daşkənddə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Tədbir Azərbaycanın Özbəkistandakı səfirliyi, Heydər Əliyev adına Azərbaycan Mədəniyyəti Mərkəzi və Özbəkistan Müsəlmanları İdarəsi (ÖMİ) ilə birgə təşkil olunub. Mərasimdə xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri, Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi, Azərbaycan diasporunun üzvləri və KİV nümayəndələri iştirak ediblər.

**Fevralın 25-də** Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində Xocalı qətliamının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri və panel müzakirəsi keçirilib. Yəhudi Tarixi Mərkəzində gerçəkləşdirilən tədbiri Amerika Sefard Federasiyası (ASF) təşkil edib. Tədbirdə ABŞ-ın müxtəlif dini və etnik təşkilatlarının təmsilçiləri, yerli ictimai fəallar, Azərbaycan və yəhudi icmalarının nümayəndələri, ölkəmizin BMT-dəki nümayəndəliyinin və ABŞ-dakı səfirliyinin əməkdaşları, eləcə də Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi iştirak edib.

**Fevral 25-də** Rusiyanın Saratov şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Şəhərin İslam kompleksində baş tutan tədbir "Vətən" Azərbaycan milli-mədəni mərkəzinin, Saratov azərbaycanlılarının regional milli-mədəni

muxtariyyətinin rəhbəri, Saratov şəhərinin İctimai Palatasının üzvü Hacı Murad Muradovun təşkilati dəstəyilə gerçəkləşdirilib.

**Fevral ayında** Kanadanın paytaxtında fəaliyyət göstərən “Qarabağ” Azərbaycan dili məktəbində və Toronto şəhərində fəaliyyət göstərən “Ana Dili” sinifində Xocalı soyqırımına həsr edilmiş dərslər təşkil edilmişdir. Şagirdlər tərəfindən çəkilmiş rəsm əsərləri nümayiş etdirilmiş və ifalarında faciəyə həsr edilmiş şeirlər səsləndirilmişdir.

**Fevralın 25-də** ABŞ-ın Massaçusets ştatının Boston şəhərində Xocalı faciəsinin 28-ci ildönümünə həsr olunmuş etiraz aksiyası keçirilib. Aksiyada Azərbaycan icmalarının Bostonda və onun ətrafında yaşayan üzvləri iştirak ediblər.

**Fevralin 25-də** Azərbaycan Respublikasının İsveçrə Konfederasiyası və Lixtenşteyn Knyazlığındakı Səfirliyinin və Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə ərsəyə gələn, azərbaycanlıların sıx məskunlaşdığı Soloturn şəhərində fəaliyyət göstərən "Azərbaycan-Türk Mədəniyyət Assosiasiyası" diaspor təşkilatının nəzdində fəaliyyət göstərən "Qarabağ" Azərbaycan həftəsonu məktəbində Xocalı faciəsinin 28-ci ildönümü ilə bağlı Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzinin sədri Qasım Nəsirov tərəfindən şagirdlərin iştirakı ilə "Xocalı-92" adlı tətbiqi-pedaqoji kvest təlimi keçirilib.

**Fevralın 25-də** Moskvadakı Yəhudi muzeyi və tolerantlıq mərkəzində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbiri Heydər Əliyev Fondu Azərbaycanın Rusiyadakı səfirliyi və AMOR təşkilatı ilə birgə təşkil edib.

**Fevralın 25-də** Monteneqronun paytaxtı Podqoritsa şəhərində Xocalı soyqırımından bəhs edən "Ağrı" romanı bu ölkənin dövlət dilində nəşr olunub. Məqsəd Şərqi Avropa xalqlarının ermənilər tərəfindən törədilmiş bu dəhşətli soyqırımı aktı haqqında daha dolğun məlumatlandırılmasıdır. Ölkəmizin Monteneqrodakı səfiri Eldar Həsənovun təşəbbüsü, Azərbaycan – Monteneqro Mədəni və İqtisadi Mərkəzinin təşkilatçılığı və “Azmont Investments” şirkətinin dəstəyi ilə ərsəyə gələn əsərin müəllifləri Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri Arye Qut və atası Əmir Qutdur.

**Fevralın 25-də** Kaliforniya ştatının San-Fransisko şəhərində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar fərdi piketlər keçirilib. Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Assosiasiyasının təşkil etdiyi fərdi piketlərdə məqsəd San-Fransisko sakinlərinin diqqətini Xocalı soyqırımına cəlb etmək olub. Assosiasiyanın fəalları əllərində Xocalıdan bəhs edən faktların yazıldığı plakatları şəhərin müxtəlif məkanlarında, insanların sıx toplaşdıqları yerlərdə nümayiş etdiriblər.

**Fevralın 25-də** Ukraynanın Jitomir şəhərində “Kədərli mələk” abidəsinin önündə “Xocalıya ədalət” aksiyası keçirilib. Tədbirdə Ukrayna Azərbaycanlılarının Həmrəylik Konqresinin nümayəndələri, Jitomir vilayət şurasının deputatları, vilayət dövlət administrasiyasının gənclər və idman idarəsinin rəisi Svetlana Yarmolitskaya, vilayət dövlət administrasiyasının mədəniyyət, gənclər və idman departamentinin dini və millətlərlə üzrə iş sektorunun müdiri Aleksandr Pivovarski və digər təşkilatların nümayəndələri iştirak ediblər.

**Fevralın 25-də** Fransanın Nant şəhərində yerləşən "Qarabağ" Azərbaycan məktəbində Xocalı soyqırımı ilə bağlı maarifləndirici tədbir keçirilib. Bu ölkədəki Azərbaycan Mədəniyyət Assosiasiyasının dəstəyilə dərslərdən biri Xocalı mövzusuna həsr olunub. Azərbaycan Gənclər Fondunun "Xaricdə Təhsil Proqramı"nın qalibi kimi

Fransada təhsilini davam etdirən Fərid Muradov məktəb şagirdlərinə Xocalı soyqırımı barədə ətraflı məlumat verib.

**Fevralın 25-26-da** Türkiyənin Bartın şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Bartın Ülkü Ocaqlarının və Bartında fəaliyyət göstərən Azərbaycan Gənclik Təşkilatının birgə gerçəkləşdirdikləri tədbirdə Xocalı soyqırımı barədə ətraflı məlumat verilib.

**Fevralın 26-da** Qazaxıstanın X.Dosmuxamedov adına Atırau Dövlət Universitetində fəaliyyət göstərən "Azərbaycan Tarixi və Mədəni İrsinin Araşdırılması Mərkəzi"ndə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Azərbaycanın Aktaudakı Baş konsulluğunun "Novruz" milli-mədəni cəmiyyəti ilə birgə təşkil olunmuş tədbirdə diplomatlarımız, cəmiyyətin üzvləri, azərbaycanlı iş adamları, universitetin müəllim-tələbə heyəti, Qazaxıstan Xalqı Assambleyasının (QXA) və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

**Fevralın 26-da** Gürcüstanın paytaxtı Tbilisi şəhərində Xocalı faciəsinin 28-ci ildönümünə həsr olunmuş aksiya keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təşviqat kampaniyasına dəstək məqsədilə Tbilisinin mərkəzində təşkil edilən aksiya Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Mərkəzinin təşəbbüs və dəstəyi, "Azərkitab" Kitab Mərkəzi, eləcə də Millətçi Gənclər Təşkilatında təmsil olunan azərbaycanlı gənclərin təşkilatçılığı ilə gerçəkləşdirilib.

**Fevral ayında** Ankarada Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş konfrans keçirilib. Xocalı həftəsi çərçivəsində Jurnalistlər Cəmiyyəti tərəfindən təşkil olunmuş tədbirdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

**Fevralın 26-da** Nyu-York şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş aksiya həyata keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-Nyu-York Assosiasiyasının təşkilatçılığı ilə Xocalı soyqırımına dair həqiqətləri əks etdirən Led ekran quraşdırılmış maşın şəhərdə hərəkət edib.10 saat davam edən aksiya zamanı ekranda Xocalıda baş verən dəhşətli hadisələri əks etdirən slaydlar nümayiş etdirilib.

**Fevralın 26-da** ABŞ-ın Hyuston şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş etiraz aksiyası keçirilib. Hyuston şəhərində yaşayan azərbaycanlı gənclər aksiya zamanı "Xocalıya ədalət!", "Erməni terrorunu qınayaq", "Erməni təcavüzünü və Azərbaycan torpaqlarının işğalını dayandır!", "Ermənistan beynəlxalq hüququn tələblərini pozur", "Birləşmiş Millətlər Təşkilatı erməni təcavüzünü qınayır" və sair şüarları nümayiş etdiriblər.

**Fevralın 26-da** Qazaxıstanın Almatı şəhərində fəaliyyət göstərən "Azərbaycanlılar Assosiasiyası" Respublika İctimai Birliyi Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı anım mərasimi təşkil edib. Tədbirdə Almatı şəhər administrasiyasının, Qazaxıstan Xalqı Assambleyasının (QXA) və digər dövlət orqanlarının yerli təşkilatlarının rəhbərləri, azərbaycanlı icmasının üzvləri və müxtəlif etnoslara məxsus ictimai-mədəni birliklərin rəhbərləri iştirak ediblər.

**Fevralın 26-da** İstanbulda Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar "Cəhənnəmdə 8 gün" tamaşasının premyerası və "Xocalıda nə oldu" kitabının təqdimat mərasimi keçirilib. Gültəpə Mədəniyyət Mərkəzində baş tutan tamaşa Xocalı sakini Dürdanə Ağayevanın xatirələri əsasında və "Bir millət, iki dövlət" layihəsi çərçivəsində hazırlanıb.

**Fevralın 26-da** Macarıstanın Peç şəhərindəki "Apollo" kinoteatrında Azərbaycan kinematoqrafiyasının istehsalı olan "Nabat" tammetrajlı bədii filmi təqdim olunub. Xocalı soyqırımının 28-ci ildönümü ərəfəsində gerçəkləşdirilən tədbir Peç-Azərbaycan cəmiyyətinin təşkilatçılığı və Azərbaycanın Macarıstandakı səfirliyinin dəstəyilə baş tutub.

**Fevralın 26-da** Qırğızıstanın paytaxtı Bişkək şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Azərbaycanın Qırğızıstandakı səfirliyinin təşkil etdiyi tədbirdə ölkə parlamentinin üzvləri, diplomatik korpusun, yerli ictimaiyyətin, "Azəri" ictimai birliyinin nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, KİV təmsilçiləri iştirak ediblər.

**Fevralın 26-da** Diaspor könüllülərinin təşəbbüsü ilə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş xüsusi aksiya keçirilib. Aksiya çərçivəsində, əksəriyyəti qaçqın və məcburi köçkün gənclərdən ibarət olan 100-lərlə diaspor könüllüsü Xocalı soyqırımının beynəlxalq miqyasda tanınması və bu faciəyə ədalətli siyasi-hüquqi qiymət verilməsi məqsədilə müxtəlif ölkələrin 10 mindən çox parlamentarilərinin email ünvanlarına internet üzərindən öz şəxsi emailləri vasitəsilə müraciət ünvanlayıblar.

**Fevral ayında** Türkiyənin Osmaniyə vilayətindəki Qorqud Ata Universitetində “28 ildir bitməyən acı: Xocalı soyqırımı” adlı anım tədbiri keçirilib. Tədbirdə elm xadimləri, diplomatik korpusların, bu ölkədəki diaspor təşkilatlarının, bələdiyyənin, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və tələbələr iştirak ediblər.

**Fevralın 26-da** Türkiyənin Adana şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Adana-Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin təşkil etdiyi tədbir şəhərin tarixi binasında – Sultan Süleyman dövründə Adana valisi olmuş Ramazanoğlunun mülkündə (evində) baş tutub. Tədbirdə Adana Qardaşlar Mədəniyyət Dərnəkləri Birliyinin, Azərbaycan diaspor təşkilatlarının üzvləri, yerli ictimaiyyətin və medianın nümayəndələri, xarici tələbələr iştirak ediblər.

**Fevralın 26-da** Türkiyənin Antalya şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Antalya-Azərbaycan Kültür və Dayanışma Dərnəyinin təşəbbüsü ilə baş tutan tədbir Antalya Anadolu Liseyinin müəllim-şagird heyəti tərəfindən həyata keçirilib.

**Fevralın 26-da** Gürcüstanın paytaxtı Tbilisi şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində baş tutan mərasimi ölkəmizin Gürcüstandakı səfirliyi, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi (GAİM), “Azərkitab” kitab mərkəzi və muzey birgə təşkil edib.

**Fevralın 26-da** Kiyevdəki Qıtlıq ("Qolodomor") soyqırımı Milli muzeyi memorial kompleksində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporunun (UABD) təşkil etdiyi tədbirdə elm və ictimaiyət xadimləri, diplomatik korpusların, KİV-lərin nümayəndələri, bu ölkədəki diaspor təşkilatlarının təmsilçiləri və Ukraynada yaşayan soydaşlarımız iştirak ediblər.

**Fevralın 26-da** Türkiyənin Dənizli şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilib. Dənizli Böyükşəhər Bələdiyyəsinin təşkilatçılığı ilə “Azərbaycan - Qarabağ parkı”nda ucaldılan Xocalı soyqırımı abidəsi ziyarət olunub.

**Fevral ayında** Türkiyənin Manisa şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş silsilə anım mərasimləri keçirilib. 15 iyul – Demokratiya Meydanında

gerçəkləşdirilən tədbir Manisa Böyükşəhər Bələdiyyəsi və Manisa-Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutub. Mərasimdə Böyükşəhər Bələdiyyəsinin nümayəndəsi, İzmir Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri Mülazım Paşa, siyasi partiyaların yerli təşkilatlarının, QHT-lərin təmsilçiləri iştirak ediblər.

Xocalı soyqırımı ilə bağlı daha bir tədbir Ülkü Ocaqları Manisa təşkilatı və Beynəlxalq Türkiyə-Azərbaycan Dili, Tarixi və Mədəniyyəti Araşdırma Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib. Konfransda azərbaycanlı tələbələr də iştirak ediblər. Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinin yad olunduğu konfransda Nəbi Kutay Şən “Qarabağ” şeirini səsləndirib.

Tədbirdə Celal Bayar Universitetinin nümayəndəsi Emin Kırlı, Araşdırma Mərkəzinin rəhbəri Seyfəddin Ayakyay, Ülkü Ocaqları Manisa təşkilatının rəhbəri Nazmi Akçay və Turqutlu rayonunda fəaliyyət göstərən Azərbaycan Kültür Dərnəyinin sədri Ünal Kağba Xocalı soyqırımının dəhşətlərindən danışıblar.

Manisa vilayətinin Turqutlu rayonunda baş tutan anım tədbirini isə Azərbaycan Kültür Dərnəyi təşkil edib. Mərasimdə yerli hakimiyyət və ictimaiyyət nümayəndələri iştirak ediblər.Tədbirdə dərnək sədri Ünal Kağba və teatr sənətçisi Roza İbadova Xocalı soyqırımı haqqında ətraflı məlumat veriblər.

**Fevralın 26-da** Qazaxıstanın Kostanay vilayətində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Tədbir vilayətdə fəaliyyət göstərən "Birlik" cəmiyyəti tərəfindən təşkil olunub.

**Fevralın 26-da** ABŞ-ın Nyu-York şəhərinin Bruklin rayonunun yerli hakimiyyəti Xocalı soyqırımının tanınmasına dair rəsmi bəyannamə imzalayıb. Bruklin meri Erik Adamsın imzaladığı 26 fevral 2020-ci il tarixli bəyannamə Azərbaycan-Amerika Qadınlar Assosiasiyasına təqdim edilib.

**Fevralın 26-da** Kanadanın Ottava şəhərində Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı etiraz aksiyaları keçirilib. Kanadanın Parlament binasının önündə baş tutan piketdə Ontario Azərbaycan İcması, Azərbaycan-Türk Kanada Assosiasiyası, Azərbaycan Kanada Multikultural Mərkəzi, Azərbaycan Qadınlarına Dəstək Mərkəzi, Monreal Kanada-Azərbaycan Cəmiyyəti, Qarabağ Azərbaycan dili məktəbi və ölkənin müxtəlif şəhərlərində fəaliyyət göstərən Azərbaycan təşkilatları və icmaları iştirak ediblər.

**Fevralın 26-da** Böyük Britaniyanın paytaxtı London şəhərində fəaliyyət göstərən Azərbaycan evində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbirdə diplomatik korpusun nümayəndələri, Azərbaycan və Türkiyə diasporunun, eləcə də digər dost diasporların üzvləri, yerli ictimaiyyətin təmsilçiləri və tələbələr iştirak ediblər.

**Fevralın 26-da** Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı ilk anım tədbiri İstanbul Universitetinin “Azərbaycan-Türkiyə Qardaşlıq və Həmrəylik Birliyi”nin təşkilatçılığıyla “Fuat Süzgin Konqres və Mədəniyyət Mərkəzi”ndə keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri, yerli ictimaiyyətin tanınmış simaları və başqaları iştirak ediblər.

**Fevralın 26-da** İsveçin paytaxtı Stokholm şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş "səssiz" yürüş keçirilib. İsveç-Azərbaycan Dərnəyi (SAF) və

Stokholm Azərbaycan Mədəniyyət Mərkəzinin (SAMM) təşkilatçılığı ilə gerçəkləşdirilən aksiyada bu ölkədə yaşayan soydaşlarımızla yanaşı, müxtəlif xalqların icma üzvləri də iştirak ediblər.

**Fevralın 26-da** Bişkek şəhər meriyasının Mədəniyyət və Turizm İdarəsinin mərkəzləşdirilmiş kitabxanalar sistemində Xocalı soyqırımınının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. "Dünya Azərbaycanlıları və digər Türkdilli Xalqların İttifaqı", "Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu" və "Qırğızıstan Azərbaycanlılarının Əlaqələndirmə Mərkəzi"nin birgə təşkil etdiyi tədbirdə mərkəzləşdirilmiş kitabxanalar sisteminin geniş oxucu kütləsi iştirak edib.

**Fevralın 26-da** Şimali Osetiya-Alaniya Respublikasının inzibati mərkəzi olan Vladiqafqaz şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Şimali Osetiya "Azərbaycanlılar Konqresi"nin mərkəzi ofisində baş tutan tədbirdə konqresin üzvləri, yerli ictimaiyyətin tanınmış simaları və başqaları iştirak ediblər.

**Fevralın 26-da** Rusiyanın Stavropol vilayətinin Pyatiqorsk şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. "Araz" Azərbaycan cəmiyyətinin təşkilatı dəstəyilə M.Qorki adına mərkəzi kitabxanada baş tutan mərasimdə Pyatiqorsk, Yessentuki, Jeleznovodsk, Mineralnıy Vodı şəhərlərində yaşayan soydaşlarımız iştirak ediblər.

**Fevralın 26-da** Rusiyanın Mahaçkala şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Tədbir Qurandan ayələrin oxunması ilə başlayıb. Mərasimdə Dağıstan Respublikasının rəsmiləri də iştirak ediblər.

**Fevralın 26-da** Türkiyənin Afyon şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Karatəpə Universitetinin Dövlət Konservatoriyasında gerçəkləşən tədbirdə Xocalı faciəsindən bəhs edən videoçarx nümayiş olunub.

**Fevralın 26-da** Qazaxıstanın Türküstan şəhərindəki Əhməd Yesevi adına Beynəlxalq Qazax-Türk Universitetində "Xocalı 28 il: Tarixin qan yaddaşı" adlı anım mərasimi keçirilib. Universitetin azərbaycanlı tələbələrinin təşəbbüsü ilə baş tutan mərasimdə Xocalı soyqırımı qurbanlarının və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsini yad olunub.

**Fevralın 26-da** Rusiyanın Nalçik şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Tədbir Qurandan ayələrin oxunması ilə başlayıb.

**Fevralın 26-da** Rusiyanın Yekaterinburq şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Tədbirdə Azərbaycanın Yekaterinburqdakı Baş konsulluğu tərəfindən təşkil olunmuş tədbirdə şəhərin ictimai-siyasi xadimləri, diplomatik korpusun, diaspor təşkilatlarının nümayəndələri və tələbələr iştirak ediblər.

**Fevralın 26-da** Türkiyənin Rizə şəhərində yerləşən Rəcəb Tayyip Ərdoğan Universitetində "Xocalıya ədalət!" mövzusunda konfrans keçirilib. Azərbaycanlı tələbələrin təşkilatçılığı ilə baş tutan konfransda universitetin müəllim və tələbə heyəti iştirak edib.

**Fevralın 26-da** Yunanıstanın Saloniki şəhərində "Xocalı soyqırımını unutma!" adlı anım mərasimi keçirilib. "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin gerçəkləşdirdiyi tədbirdə Türkiyənin Saloniki şəhərindəki Baş konsulu və türk

diplomatları, Gürcüstan konsulluğunun əməkdaşları, diaspor üzvlərimiz və tələbələr iştirak ediblər.

**Fevralın 26-da** Çexiyanın Praqa şəhərində ″Çex Respublikasında Azərbaycan icması″nın təşkilatçılığı ilə Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar olaraq anım tədbiri keçirilib. Tədbirdə ″Çex Respublikasında Azərbaycan icması″nın üzvləri, bu ölkədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

**Fevralın 26-da** Litvanın müxtəlif bölgələrində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilib. Klaypeda şəhərindəki İ.Şimonaitytes adına dövlət kitabxanasında baş tutan anım mərasimində litvalı kinematoqrafçılar tərəfindən lentə alınmış “Sonsuz dəhliz” filminin təqdimatı olub. “Azeris” Klaypeda Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı ilə gerçəkləşən tədbirdə soydaşlarımızla yanaşı, yerli ictimai-siyasi təşkilatların nümayəndələri, müxtəlif icmaların rəhbərləri, Vilnüs və Şiaulyaydan gələn qonaqlar iştirak ediblər.

**Fevralın 26-da** Ukraynanın paytaxtı Kiyev şəhərində "Xocalı faciəsi: tarixi müqəddimə, səbəblər, nəticələr və hüquqi qiymət" mövzusunda elmi konfrans keçirilib. Ukrayna Azərbaycanlıları Radasının təşkil etdiyi tədbirdə ölkənin tanınmış elm xadimləri iştirak ediblər.

**Fevralın 26-da** Kanadanın Alberta vilayətinin Kalqari şəhərində Xocalı soyqırımı qurbanlarını anım tədbiri təşkil olunmuşdur. Alberta Azərbaycan Mədəniyyət Cəmiyyətinin (Alberta Azerbaijani Cultural Society) və Azərbaycanın Kanadadakı səfirliyinin təşkilatçılığı ilə Kanadanın Alberta vilayətinin Kalqari şəhərində Xocalı soyqırımının 28-ci ildönümü münasibətilə anım tədbiri təşkil olunub. Tədbirdə Xocalı soyqırımının canlı şahidi olmuş tanınmış jurnalist Riçardas Laplatitis də iştirak edib. Litvalı kinematoqrafçılar tərəfindən lentə alınmış “Sonsuz dəhliz” filmi nümayiş olunub**.**

**Fevralın 26-da** Rusiyanın Sankt-Peterburq şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Azərbaycanın Sankt-Peterburqdakı Baş konsulluğunun təşkil etdiyi mərasimdə Rusiyanın şimal paytaxtının ictimai-siyasi xadimləri, diplomatik korpusun, diaspor təşkilatlarının nümayəndələri və tələbələr iştirak ediblər.

**Fevralın 26-da** Türkiyənin İzmir şəhərinin Qarabağlar qəsəbəsində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Qarabağlar bələdiyyəsi, Azərbaycan Türkləri və Dostluq Dərnəkləri Federasiyası tərəfindən təşkil edilən mərasimdə qəsəbənin yerli icra hakimiyyətinin, bələdiyyənin, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, yerli ictimaiyyətin nümayəndələri, diaspor təşkilatlarının rəhbərləri və soydaşlarımız iştirak ediblər.

**Fevralın 26-da** İstanbulda XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş müzakirələr təşkil olunub. Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi, “Yeni Çağ” Media qrupu ilə Azərbaycan-Türkiyə Evinin (ATEV) birgə təşkilatçılığı ilə İstanbul Universitetində “Xocalı üçün danışaq” adlı panel keçirilib.

**Fevralın 26-da** “Birlik” milli-mədəni cəmiyyəti tərəfindən Uralsk şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə, cəmiyyətin üzvləri, türkiyəli iş adamları, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

**Fevralın 26-da** Türkiyənin Əskişəhərdəki Anadolu Universitetində "XX əsrin Faciəsi – Xocalı soyqırımı" adlı anım tədbiri keçirilib. Əskişəhər Azərbaycanlılar

Dərnəyi, Türk Dünyası Araşdırmaları Klubu və tələbələrin birgə təşkil etdikləri tədbirdə Xocalı soyqırımı qurbanları yad edilib.

**Fevralın 26-da** Türkiyənin Nevşehir və Zonquldaq şəhərlərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbirləri təşkil olunub. Azərbaycan Kültür Cəmiyyətinin və azərbaycanlı tələbələrin təşəbbüsü ilə Nevşehir Hacı Bektaş Veli Universitetində gerçəkləşdirilən tədbirdə müəlllim-tələbə heyəti və Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nümayəndələri iştirak ediblər.

**Fevralın 26-da** Paris şəhərinin "Notre-Dame les Blancs-Manteaux" kilsəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib. Tədbir Azərbaycanın Fransadakı səfirliyinin təşkilatçılığı ilə gerçəkləşdirilib. Mərasimdə diplomatik korpusların, KİV-lərin nümayəndələri, bu ölkədəki diaspor təşkilatlarının təmsilçiləri və fəalları iştirak ediblər.

**Fevralın 26-da** Qazaxıstanın Aktöbe və Qərbi-Qazaxıstan vilayətlərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş tədbirlər keçirilib. Ölkəmizin Aktau şəhərindəki Baş konsulluğunun dəstəyi ilə Aktöbe vilayətində təşkil edilən tədbirdə "Azərbaycanlılar Birliyi"nin üzvləri, müxtəlif xalqların etnik-mədəni cəmiyyətlərinin rəhbərləri və yerli ictimaiyyətin tanınmış simaları iştirak ediblər.

**Fevralın 27-də** Samara vilayətinin Azərbaycanlılar Liqası Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri təşkil edib. Mərasimdə liqanın idarə heyətinin sədri, sədr müavini və Ağsaqqallar Şurasının sədri, "Azərros" Federal Milli Mədəni Muxtariyyətinin Ağsaqqallar Şurasının, Samara vilayətinin İctimai Palatasının üzvü və başqaları çıxış ediblər.

**Fevral ayında** Türkiyənin paytaxtı Ankarada Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş "Qanayan yaramız Xocalı" adlı tədbir keçirilib. Ankara Qazi Universitetində Texnologiya bölümünün (fakültəsinin) təşkilatçılığı ilə baş tutan tədbirdə elm xadimləri, diplomatik korpusların, KİV-lərin nümayəndələri, bu ölkədəki diaspor təşkilatlarının təmsilçiləri və soydaşlarımız iştirak ediblər.

**Fevralın 27-də** Ukraynanın Dnepr Texniki Milli Universitetində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbir Azərbaycanın Ukraynadakı səfirliyi və Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk vilayəti təşkilatının birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə Dneprdə təhsil alan azərbaycanlı məktəblilər Xocalıya dair kompozisiya təqdim ediblər.

**Fevralın 28-də** "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Ankaradakı səfirliyi tərəfindən Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Türkiyə Böyük Millət Məclisində (TBMM) rəsm sərgisi və konfrans təşkil olunub. Açılış mərasimində rəsmi şəxslər, diplomatlar, TBMM-nin üzvləri və KİV nümayəndələri iştirak ediblər. "Emedia Group" tərəfindən təşkil olunan "Xocalı - tarixin qan yaddaşı" adlı sərgidə Xocalı soyqırımının dəhşətlərini əks etdirən fotolardan ibarət videoçarx nümayiş olunub.

**Fevralın 28-də** Böyük Britaniyanın paytaxtı London şəhərində fəaliyyət göstərən Azərbaycan evində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbirdə diplomatik korpusun nümayəndələri, Azərbaycan və Türkiyə diasporunun, eləcə də digər dost xalqların diasporları, yerli ictimaiyyətin təmsilçiləri və tələbələr iştirak ediblər. Mərasimdə Azərbaycan evinin sədri Ali Tekin Atalar,

Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfiri Tahir Tağızadə və britaniyalı jurnalist Neil Vatson çıxış ediblər.

**Fevralın 28-də** Ermənistanın Vaşinqtondakı səfirliyi qarşısında Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar etiraz aksiyası keçirilib. ABŞ Azərbaycanlıları Şəbəkəsinin (USAN) təşkil etdiyi aksiyada Vaşinqton və onun ətrafında, Nyu-Yorkda fəaliyyət göstərən Azərbaycan icmasının üzvləri iştirak ediblər.

**Fevralın 29-da** Avstriyanın paytaxtı Vyana şəhərində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş aksiya keçirilib. Şəhərin mərkəzindəki Ştefansplats meydanında gerçəkləşdirilən aksiyanı Avstriya-Azərbaycan Mədəniyyət və İş Adamları Dərnəyi ("Azer-DER") təşkil edib.

**Martın 1-də** Türkiyənin İzmir şəhərinin Bornova rayonunda Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib. Mərasim Azərbaycan Dostluq Parkında ucalan Xocalı soyqırımı abidəsinin qarşısında təşkil edilib. Bornova rayon bələdiyyəsinin sədri, rayon rəhbərliyi, bornovalılar və soydaşlarımızın qatıldığı tədbirdə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib, şəhidlərimizin ruhuna dualar oxunub, Xocalı soyqırımı abidəsinin önünə gül-çiçək düzülüb.

**Martın 2-də** Türkiyənin Osmaniyə vilayətindəki Qorqud Ata Universitetində “28 ildir bitməyən acı: Xocalı soyqırımı” adlı anım tədbiri keçirilib. Azərbaycanın və Türkiyənin dövlət himnlərinin səsləndirilməsindən sonra hər iki ölkənin ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Osmaniyə valisi Ömer Faruk Coşkun, Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Cavid Vəliyev, Osmaniyə baş prokuroru Ahmet Tekne, Qorqud Ata Universitetinin rektoru, professor Murat Türk, bələdiyyənin, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və tələbələr iştirak ediblər. Mərasimdə Universitetin rektoru M.Türk, səfir X.İbrahim, Dövlət Komitəsi sədrinin birinci müavini V.Hacıyev və başqaları çıxış ediblər.Nümayəndə heyətinin Türkiyənin Osmaniyə və Hatay bölgəsinə səfəri çərçivəsində Xocalı prospektinin açılış mərasimi də keçirilib.

**Martın 2-də** Ankarada Jurnalistlər Cəmiyyəti tərəfindən Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş konfrans keçirilib. Tədbirdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, sonra Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib. Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun sədri, professor Aygün Attar çıxışı zamanı Xocalı soyqırımını ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin Türkiyə və Azərbaycan ərazisində həyata keçirdikləri soyqırımı siyasətinin bir hissəsi kimi qiymətləndirib.

**Martın 2-də** Niderlandda ermənilərin təxribat cəhdinin qarşısı alınıb. Azərbaycan diasporunun Xocalı soyqırımının ildönümü ilə bağlı Avropanın müxtəlif ölkələrində etiraz aksiyaları keçirmələri erməni separatçılarını çox narahat etdiyindən, onlar təxribatlara əl atmağa cəhd göstəriblər. Dağlıq Qarabağdakı qondarma və qeyri-qanuni terrorçu rejimi dəstəkləyən bir qrup erməni əsilli şəxs Haaqa şəhərində səfirliyimizin qarşısında piket keçirməyə cəhd göstərib, lakin Niderlanddakı diasporumuzun nümayəndələrinin layiqli cavabı ilə üzləşib.

**Martın 3-də** Ankarada fəaliyyət göstərən “Azərbaycan Gənclərinin Ankara Həmrəyliyi” (AGAH) ictimai birliyi AGAH-ın Məhəmməd Əmin Rəsulzadə adına Anadolu

liseyi ilə birgə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbirləri keçirib. Tədbir Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi, Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinin yad edilməsilə başlayıb. Mərasimdə Türkiyə Böyük Millət Məclisinin 23-cü çağırış millət vəkili Şevket Kösə, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri Nəcibə Nəsibova, AGAH sədri Təbriz Raufoğlu, liseyin direktoru Talha Kaya çıxış ediblər.

**Martın 4-də** İsraildə Holon Texnologiya İnstitutu, "İsraildə Azərbaycan Evi" və Heydər Əliyev Fondunun birgə iştirakı ilə "Azərbaycanın geosiyasi reallığı və Cənubi Qafqaz: tarix və perspektivlər" mövzusunda elmi-praktik konfrans keçirilib.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən konfransda İsrailin siyasi partiyalarının, yerli ictimaiyyətin nümayəndələri, Holon Texnologiya İnstitutunun tələbə və müəllim heyəti, israilli jurnalistlər, Azərbaycan icmasının üzvləri iştirak ediblər.

**Martın 5-də** Türkiyənin İğdır şəhərində Xocalı soyqırımının dəhşətlərini özündə əks etdirən foto-sərgi təşkil olunub. İğdır Kültür Mərkəzində gerçəkləşdirilən "Xocalıya ədalət!" sərgisini Türkiyə-Azərbaycan Dərnəyinin (TÜRKAZDER) İğdır şöbəsi təşkil edib. Sərgidə Xocalı hadisələrindən sonra Azərbaycan və xarici jurnalistlərin çəkdiyi, eləcə də dərnəyin İğdır şöbəsinin rəhbəri İlteriş Kağan Taşkınsunun xarici ölkələrə səfərləri çərçivəsində əldə etdiyi 85 foto nümayiş olunub.

**Martın 7-də** Türkiyənin Düzce Universitetində "Xocalı: Qar Üstünə Qan Yağdı" adlı anım tədbiri keçirilib. Tədbir Düzce Universiteti Türk Dünyası Birliyinin təşkilatçılığı, eləcə də Düzce Alperen Ocakları və Düzce Beynəlxalq Tələbə Dərnəyinin dəstəyi ilə gerçəkləşdirilib. Mərasimdə universitetin müəllim-tələbə heyəti ilə yanaşı, Türkiyənin müxtəlif şəhərlərində fəaliyyət göstərən azərbaycanlı tələbə-gənclər təşkilatlarının ilk dəfə bir araya gələn liderləri də iştirak ediblər.

## Xocalı soyqırımı xarici mətbuatda

**Fevralın 25-də** Ukraynanın "Obozrevatel" saytında Xocalı soyqırımından bəhs edən "Xocalı üçün ədalət tələb etməklə, biz gələcək faciələrin qarşısını alırıq" ("Требуя справедливости для Ходжалы, мы предотвращаем будущие трагедии") başlıqlı məqalə dərc edilib. Murad Cəfərovun müəllifi olduğu məqalədə erməni silahlı dəstələrinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının dinc azərbaycanlı sakinlərinə qarşı törətdikləri soyqırımından bəhs olunub.

**Fevralın 26-da** Qazaxıstan "Avrasiya xəbərləri" beynəlxalq xəbərlər agentliyinin ("EurasiaNews International News Agency") saytında Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş məqalə dərc edilib. Qazaxıstanlı jurnalist Nurgali Jusipbayın müəllifi olduğu məqalədə soyqırımının qurbanları və faciənin dəhşətləri barədə ətraflı informasiya verilib.

**Fevralın 26-da** TRT Trabzon radiosu Xocalı soyqırımının 28-ci ildönümünə proqram həsr edib. Proqrama bu şəhərdə təhsil alan gənclərimiz – Türkiyənin Qaradəniz Texniki Universitetinin (QTU) Gəmi inşaat və gəmi mexanikaları mühəndisliyi fakültəsinin və QTU Orman mühəndisliyi fakültəsinin tələbələri qatılıblar.

**Fevralın 26-da** "European News Agency" saytında Almaniyanın Berlin şəhərində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar keçirilmiş Ümumavropa Qarabağ mitinqindən bəhs edilib. Məqalənin müəllifi Karlo Marino qeyd edib ki, 30-dan çox ölkədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının təşəbbüsü və Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə keçirilən mitinq Brandenburq qapılarının yaxınlığındakı Paris meydanında baş tutub.

**Fevralın 26-da** Macar-Turan Fondunun "kurultay.hu" rəsmi veb səhifəsində “Xocalı soyqırımı – səssiz faciə” (“A Hodzsali mészárlás - egy elhallgatott tragédia”) adlı məqalə dərc olunub. Macarıstan Azərbaycan Gənclər Birliyinin təşəbbüsü ilə dərc olunan yazıda Xocalı qətliamı XX əsrin sonunda baş vermiş dəhşətli faciələrdən biri adlandırılıb.